# “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC-nin (bundan sonra-Cəmiyyət)
# 2026-2029-CU İLLƏR ÜZRƏ
# STRATEJİ BAXIŞ VƏ MİSSİYA BƏYANATI

**2026-cı il**

**Cəmiyyətin strateji baxışı:**

- Azərbaycanın kapital bazarında innovativ investisiya həlləri təqdim edən, yüksək etimad, peşəkarlıq və texnoloji üstünlükləri ilə seçilən aparıcı investisiya şirkətlərindən biri olmağı hədəfləyir.
- Cəmiyyət yerli və beynəlxalq maliyyə bazarları arasında etibarlı körpü rolunu oynayaraq investorlar üçün geniş investisiya imkanları yaratmağı, maliyyə bazarlarının inkişafına töhfə verməyi və investisiya xidmətlərini cəmiyyət üçün daha əlçatan etməyi hədəfləyir.
- Cəmiyyət Azərbaycanın maliyyə bazarına yeniliklər gətirərək, A-dan Z-yə investisiya həlləri təqdim edən etibarlı tərəfdaş kimi tanınır və “Adımız güvənimizdir” şüarı ilə bazarda qazandığı etibar əsasında müştəri bazasını ildən-ilə genişləndirməyi hədəfləyir.
- Cəmiyyət investisiya mədəniyyətinin inkişafına, maliyyə savadlılığının artırılmasına və ölkənin kapital bazarının qlobal maliyyə sisteminə inteqrasiyasına töhfə verən nüfuzlu maliyyə institutu olmağı hədəfləyir.
- Bu Strateji Baxış Cəmiyyətin uzunmüddətli inkişaf istiqamətlərinin, strateji prioritetlərinin və korporativ hədəflərinin müəyyənləşdirilməsi üçün əsas çərçivə rolunu oynayır.

**Cəmiyyətin missiya bəyanatı:**

Cəmiyyətin missiyası maliyyə bazarlarını hər kəs üçün daha əlçatan və başadüşülən etmək, müştərilərinə təhlükəsiz, innovativ və müasir investisiya xidmətləri təqdim etməklə onların maliyyə məqsədlərinə nail olmasına dəstək göstərməkdir.

“Yatırım dünyasının qaydalarını yenidən formalaşdırırıq” prinsipi ilə fəaliyyət göstərən Cəmiyyət hər kəsin investor olma potensialını reallaşdırmasına şərait yaratmağı, investisiya imkanlarına çıxışı genişləndirməyi və maliyyə biliklərinin artırılmasını dəstəkləməyi öz missiyasının ayrılmaz hissəsi hesab edir.

Bu missiyanın həyata keçirilməsi məqsədilə Cəmiyyət:

- müştəri yönümlülük, etibarlılıq, şəffaflıq və innovasiya prinsiplərini əsas fəaliyyət dəyərləri kimi qəbul edir;
- müasir texnologiyalar, o cümlədən süni intellekt və rəqəmsal həllər vasitəsilə xidmət keyfiyyətinin davamlı artırılmasını təmin edir;
- yerli və beynəlxalq qabaqcıl təcrübələri tətbiq edərək investisiya xidmətlərini inkişaf etdirir;
- müştərilər qarşısında öhdəliklərin vaxtında və tam yerinə yetirilməsini təmin edir;
- investisiya məhsulları və maliyyə alətlərinin çeşidini davamlı şəkildə genişləndirir;
- maliyyə savadlılığının artırılması və investisiya mədəniyyətinin formalaşdırılması istiqamətində maarifləndirici fəaliyyətlər həyata keçirir;
- əməkdaşların peşəkar inkişafını dəstəkləyir və yüksək korporativ idarəetmə standartlarını tətbiq edir;
- regional və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığı genişləndirərək qlobal investisiya imkanlarına çıxışı artırır;
- məlumat əsaslı idarəetmə və analitik qərarvermə mexanizmlərini inkişaf etdirir;
- korporativ sosial məsuliyyət prinsiplərinə uyğun olaraq təhsil, innovasiya və maliyyə savadlılığı sahələrində layihələri dəstəkləyir.